# TARİXİ ROMANÇILIQDA YUNUS OĞUZ YOLU

Dahi fransız yazıçısı O.Balzak kitablarının birinin müqəddiməsində yazır: "Əsl tarixçi fransız cəmiyyətidir, mən isə ancaq onun katibiyəm".

Azərbaycan tarixi romanlarından söz açanda bu kəlamı həmişə xatırlayıram və belə düşünürəm ki, Məmməd Səid Ordubadidən başlayan tarixi roman ənənəsi bu gün də uğurla davam etdirilir. Və hər bir romançı Azərbaycan tarixinin müxtəlif qütblərini, həm işıqlı, həm də qaranlıq səhifələrini canlandırarkən məhz katiblik missiyasını yerinə yetirir. Onlar təzədən tarix yaza bilməzlər, ancaq tarixi hadisələrə və tarixi şəxsiyyətlərin həyat yoluna yenidən nəzər yetirib onları bədii şəkildə canlandıra bilərlər. Bu əksetdirmədə tarixi reallıqlarla bədii təxəyyüldən doğan məqamlar bir-birilə vəhdət təşkil etməlidir, V.Q.Belinski demişkən: "Tarixi romana uydurma, hər şeydən əvvəl, şəxsi həyatı, ayrı-ayrı insanların taleyini təsvir etmək yolu ilə daxil olur və tarixlə bağlı hadisələr tək-tək adamların taleyi ilə qaynayıb qarışır". Amma dəxli yoxdur, istər tarixi reallıqlar, istərsə də yazıçı təxəyyülündən doğan hadisələr, olaylar, obrazlar...bütün bunlar təsvir olunan tarixi dövrün özünün obrazını yaratmalıdır. Bizim ən sanballı tarixi romanlarımızda, istər Ordubadi, istər Y.V.Çəmənzəminli, istər Ə.Cəfərzadə, istər F.Kərimzadə, istər Ç.Hüseynov və istərsə də digər tarixi roman müəlliflərimiz bu prinsipə həmişə əməl etmişlər. Son iyirmi ildə də tarixi roman öz inkişafından qalmamış, yazıçılarımız mövcud ənənəyə sədaqət göstərərək yeni əsərlər yazmışlar. Sabir Rüstəmxanlının, Elçin Hüseynbəylinin, Hüseynbala Mirələmovun, Mustafa Çəmənlinin tarixi romanları bu janrın inkişafında yeni bir dönəmin başlandığını sübut edir. Bu yazıda haqqında söz açacağım Yunus Oğuz da artıq tarixi romanlar müəllifi kimi diqqəti cəlb edir və artıq bu sahədə bir sıra uğurlar əldə etmişdir.

Yunus Oğuzun tarixi romanları ("Nadir şah", "Təhmasib", "Əmir Teymur", "Şah arvadı və cadugər", "Sultan Alp Arslan", "Atabəy Eldəniz") son 10 ilin məhsuludur və doğrudan da bu rəqəmin özü adamı heyrətləndirir. On ildə yeddi tarixir roman ("Əmir Teymur" iki hissədən ibarətdir) dörd kitabda cəmləşib və əlavə edim ki, "Atilla", "Altun dəftər", "Nadir şah" pyesləri də tarixi mövzudadır, o zaman tarixi nəsrimizdə Yunus Oğuz yolunun varlığından söz aça bilərik. Və qəti əminəm ki, XXI əsrin kitaba o qədər də həvəsli olmayan oxucuları bu romanlara biganə deyillər.

Yunus Oğuzu on ildə yeddi tarixi roman yazmağa vadar edən səbəb nədir,-deyə düşündüm. Birincisi, belə güman etdim ki, əsas səbəb onun heç də tarixçi olmasında deyil, illər boyu ürəyində mürgüləyən, sonrasa birdən-birə ayılan yazıçı şövqünün get-gedə şiddətlənməsidir. Necə ki, bəzi aktyorlar dönüb istedadlı bir rejissora çevrilirlər. Bu məqamda mən Yunus Oğuzun bütün bu romanlarına dəyərli müqəddimələr yazmış akademik Nizami Cəfərovun bir fikrini xatırlayıram: "Yunus Oğuzun çox zəngin elmi-tarixi düşüncəsi var, tarixə dərindən bələdliyi var, tarixlə işləmək mədəniyyəti, eyni zamanda, çox müasir və güclü bədii təfəkkürü var. Tarixdən yazan yazıçı üçün bunların hər ikisi mühüm məsələdir".

İkincisi, qəti əminəm ki, ən yaxşı, sanballı tarixi romanlarımız böyük vətənpərvərlik duyğusu ilə qələmə alınır və vətənpərvərlik duyğusu istənilən tarixi romanın məzmununa da, bədiiliyinə də təsirsiz qalmır. Yunus Oğuzun tarixi romanlarında da bunu hiss edirik.

Yazıçı üçün tarixi roman qələmə almaq çox məsuliyyətli bir işdir və burada ilk növbədə, əsl istedadla yanaşı, bu istedadı şərtləndirən bir çox arqumentlər də nəzərə alınmalıdır. O arqumentlər sırasında yazıçının mürajiət etdiyi tarixi dövrü, haqqında söz açdığı tarixi şəxsiyyəti nə dərəcədə dərk etməsi birincidir. Deyim ki, Məmməd Səid Ordubadi Nizami dövrünü və Nizami şəxsiyyətini

dərk etməsəydi, kifayət qədər (hətta tarixçilərin bildiyindən də artıq!) məlumatlı olmasaydı, necə deyərlər, təpədən-dırnağa nizamiləşməsəydi, "Qılfınc və qələm" kimi möhtəşəm bir roman meydana gəlməzdi. Yaxud Yusif Vəzir Çəmənzəminli "Qan içində" romanını yazarkən Molla Pənah Vaqifin yaşadığı dövrə və bu böyük şairin həyatına, yaradıcılıq dünyasına bələd olmasaydı, gözəl bir tarixi roman yarana bilməzdi. XXI əsrin yazarı Yunus Oğuz da bu həqiqəti yaxşı bilir və öz tarixi romanlarını qələmə alarkən, əlində məşəl tarixin qaranlıq hücrələrinə yol alır.

Söhbətimizə xronoloji ardıcıllığa riayət edibən Yunus Oğuzun "Nadir şah"ından başlayaq. Xatırlayaq ki, XIX əsrin sonlarında-1898-ci ildə Azərbaycan dramaturgiyasında ilk tarixi faciə-"Nadir şah" yazıldı. Onun müəllifi o zaman bir maarifçi və demokrat kimi tanınan Nəriman Nərimanov idi. Təbii ki, "Nadir şah" faciəsini yazmaq Nərimanova ona görə lazım idi ki, öz maarifçi fikirlərini oxucuya çatdırsın, tarixə müraciət etməklə, əslində, müasirlərinə bir çox həqiqətləri çatdırmaq istəmişdir. Faciədə Nadir şah çox ziddiyyətli bir şəxsiyyət kimi təqdim edilir: həm müstəbiddir, həm də ağıllı bir islahatçı, həm adil bir hökmdardır, həm də oğul qatili.

Heç şübhəsiz, "Nadir şah" faciəsi N.Nərimanovun dövlət və cəmiyyət, şahlıq və monarxiya, hökmdar və xalq haqqında fikirlərini ifadə etməyə xidmət etmiş və buna o, tamamilə nail ola bilmişdir. Amma Nadir şahın tam və dolğun obrazını bir pyesdən tələb etmək doğru olmazdı. Nadir şahın Azərbaycan tarixində tutduğu mövqe, onun amalları, uğrunda mübarizə apardığı ideallar fajiədə əks olunmamışdır. Ümumiyyətlə, keçən əsrin 90-cı illərinə qədər Azərbaycan ədəbiyyatında şahlara, hökmdarlara qarşı birmənalı şəkildə mənfi tendensiya mövcud olmuşdur. "Nadir şah" faciəsində bu, o qədər də hiss olunmur, amma Nadirin qaçaqçılıq, quldurçuluqla məşğul olması əsərin ilk şəkillərində xüsusilə nəzərə çarpdırılır. Bu da tarixi baxımdan dəqiqləşməyib, bəlkə də yanlışdır.

Yunus Oğuz "Nadir şah" romanında xronoloji ardıcıllığı gözləmiş, Nadirin uşaqlıq yaşlarından ta ölümünə qədər, bir insan-hökmdar ömrünü tam şəkildə əks etdirmişdir. Romana ön söz yazan Nizami Cəfərov qeyd edir ki: "Müfəssəllik, təfsilatın genişliyi, müəyyən məqamlarda hətta saray münaqişələrinin daxilinə girməyə qədər, tarixin məişətinə daxil olmağa qədər, bu üslub M.S.Ordubadinin üslubudur. Elə bil ki, Məmməd Səid Ordubadinin üslubunu Yunus Oğuz yenidən dirçəldir. Çoxlu tarixi romanlar yazılıb. Onların heç birində Məmməd Səid Ordubadi üslubu bu dərəcədə təzahür etməmişdi. Bu da onunla bağlıdır ki, Yunus Oğuz dövrü yaxşı bilir". Burada bizi maraqlandıran odur ki, Yunus Oğuz da öz qüdrətli sələfi kimi tarixi romanda MÜFƏSSƏLLİK yolunu seçmişdir. Ordubadinin üslubunun təzahürünə gəldikdə bu məqamda N.Cəfərovla mübahisə etmək fikrimiz olmasa da, deyərik ki, Ordubadidə olan üslub "şirinliyi", macəraçılığa meyl Yunus Oğuzda çox zəifdir.Yəni Yunus Oğuz Nadir şahı çox ciddi planda təqdim edir, əsərdə sevgi macəralarına demək olar ki, yer ayırmır, hadisələri Ordubadi sayağı macəraçılıq səmtinə yönəltmir və s. Nadirin şəxsiyyəti ilə bağlı araşdırmalar və eyni zamanda, onun həyatı, keçdiyi ömür yolu ilə bağlı oxuduğu mənbələr təsəvvürdə NADİR ŞAH OBRAZInın başlıca cizgilərini yaratmışdır.

Nadir şah qüdrətli bir dövlət yaratdı, itirilmiş torpaqları qılınc və savaş gücünə geri aldı. Bəs niyə ölümündən sonra o dövlət parçalandı, xanlıqlara bölündü, sülalə davam etmədi? Bunun səbəbləri romanda birbaşa göstərilmir, amma təsvirlərdən aydın görünür ki, bu, belə də olmalıydı. Çox güclü bir fatehin, dünyaya meydan oxuyan bir hökmdarın düşmənləri də çox olur. Həm də qılınc hakimiyyətinin zəif nöqtələri çox olur və Nadirin hakimiyyəti də belə zəif nöqtələrlə dolu idi.

Yunus Oğuzun "Nadir şah" romanı böyük fateh haqqında bizim təkcə bildiklərimizi deyil, bilmədiklərimizi də açıqlayır və beləliklə, tamamlanmamış "Tarixi-Nadir" öz bədii-tarixi təcəssümünü də bu romanda tapır.

Yunus Oğuzun "Təhmasib şah" romanı da "Nadir şah"dakı üslubi xətti davam etdirir. Təbii ki, I Şah Təhmasib haqqında tarixi mənbələrdə maraqlı faktlar diqqəti cəlb edir, amma heç bir tarixi mənbədə şahın insani xarakteri, bu xarakteri səciyyələndirən güclü və zəif cəhətləri əks olunmayıb. Yazıçını da tarixçidən ayıran, fərqləndirən elə bu cəhətlərdir.

"Tarixçi dövrün ümumi ictimai münasibətlərini əks etdirirsə, yazıçı ən çox dövrün psixologiyasını təşrih edir. Tarixçi psixoloq deyildir. Lakin sənətkar psixoloq olmalıdır. Bunsuz tarix elmi yaransa da, tarixi-bədii əsər yarana bilməz. Bir qədər də sadə desək, tarixçi "nələr olmuşdur?" sualına cavab verirsə, sənətkar "nələr ola bilərdi və necə ola bilərdi?" suallarına da cavab verir. Yazıçının vəzifəsi heç də tarixi şəxsiyyətlərin fəaliyyətini başdan-başa izləyib bədii tərcümeyi-hal yaratmaqdan ibarət deyildir (M.Hüseyn)".

Əlbəttə, Yunus Oğuz bu məlum həqiqəti yaxşı dərk edir və bədii tədqiq hədəfinə çevirdiyi tarixi hadisələri və şəxsiyyətləri bədii təxəyyül süzgəcindən də keçirir. Onun tarixi romanlarında təsvir olunan qəhrəmanlar həm tarixi şəxsiyyətlər, həm də insan kimi dolğun təsir bağışlayırlar. "Nadir şah"da bunu əyani gördük, "Təhmasib şah"da da həmçinin...

Ümumiyyətlə, Azərbaycan ədəbiyyatında tarixi roman ənənələri artıq formalaşmışdır və indi də o ənənənin ən yaşarı xüsusiyyətlərini biz yeni yaranan tarixi romanlarımızda, o cümlədən, Yunus Oğuzun "Təhmasib şah" romanında da görürük. Tarixi həqiqətlərə sədaqət, lakin eyni zamanda, bu həqiqətləri bədii təxəyyül süzgəcindən keçirmək, daha çox tarixlə müasirlik arasında körpü yaratmaq, keçmişlə bugünü bir-birindən ayırmamaq fikrimizcə, əsas məqsəd bunlardır.

İndi isə "Təhmasib şah" romanının özünəməxsus xüsusiyyətləri barədə. Biz, həmçinin bu romanın Azərbaycan tarixi roman ənənələri ilə bağlılığı barədə də söz deyəcəyik.

Fikrimizcə, Azərbayjan tarixi romanlarının bir sıra ən uğurlu nümunələri-"Qılınc və qələm" (M.S.Ordubadi), "Qan içində" (Y.V.Çəmənzəminli), "Xudafərin körpüsü", "Çaldıran döyüşü", "Təbriz namusu" (Fərman Kərimzadə), "Bakı-1501", "Vətənə qayıt", "Yad et məni" (Əzizə Cəfərzadə)- ilə "Təhmasib şah" müəyyən tipoloji xüsusiyyətlərinə görə bir-birilə bağlı romanlardır. Ona görə ki, bu romanların hər biri həm tarixdən məlum olan şəxsiyyətlər və hadisələr haqqında olsa da, xronika səviyyəsində deyillər. Yəni tarixi hadisələr və şəxsiyyətlər barədə quru, ritorik məlumatlara bədii don geyindirilmir, tarix bizə çağdaş dövrümüzü xatırladır və bu səbəbdən də roman təkcə tarixi-bədii əsər kimi deyil, həm də müasir əsər kimi təsir bağışlayır. Təhmasib şah öz dövründə qüdrətli, əzəmətli bir şah idi və onun timsalında məlum olur ki, dövlətçilik ənənəsinin yaranmasında və möhkəmlənməsində, məmləkətin ədalətlə idarə olunmasında, ən çətin məqamlarda şahlığın, hakimiyyətin və ordunun xalqla birliyində hakim-liderin-şahın əvəzsiz rolu var. Təhmasib şah da atası-Şah İsmayıl kimi hakimiyyətə uşaqkən (on-on bir yaşlarında) gəlmişdi, lakin o, get-gedə müstəqil ağlı, möhkəm iradəsi sayəsində ağıllı və qüdrətli bir hökmdara çevrilir. Səfəvilər dövlətinin, o zamankı Azərbaycan məmləkətinin düşməni olan Osmanlı imperiyası və Sultan Süleyman dörd dəfə yürüş etmişdi ki, Təhmasib şahı və onun hakimiyyətini sarsıtsın. Ancaq hər dəfə onun yürüşü uğursuzluqla nəticələnir. Nizami Cəfərov haqlı olaraq yazır ki, "Yunus Oğuz Təhmasibin hərbi taktikasına haqq qazındır, o, bütövlükdə ordunu yox, xalqı Sultan Süleymanın qarşısına çıxarır. Ordu ilə qalib gəlmir Təhmasib şah Sultan Süleymana, o, həmişə xalqın gücü, xalqın iradəsi ilə qalib gəlir. Bu, həm tarixin faktıdır, həm də əsərin hadisəsidir". Yunus Oğuz da

öz tarixi romanında Azərbaycançılığı təbliğ edir və bu cəhət açıq şəkildə nəzərə çarpmasa da, biz əsərin ümumi ruhunda bunu hiss edirik.

Yunus Oğuz təsvir etdiyi dövrün (XVI əsr) hadisələrinə heç bir müdaxilə eləmir, yəni məlum hadisələrə özündən yeni bir hadisə əlavə eləmir.

Əgər edirsə də, həmin dövrün tarixi koloritindən kənara çıxmır. Lakin o, tarixi dövrə müasir bədii təfəkkürün işığında yanaşır. O dövr üçün də indiki tək BİRLİK, BÜTÖVLÜK, MÜSTƏQİLLİK ideyası bir konsepsiya kimi mövcud idi. Təbii ki, bu konsepsiya XVI əsr üçün fərqli idi. Maraqlıdır ki, Təhmasib müxtəlif təriqətlərin, ideya-siyasi-fəlsəfi cərəyanların fəaliyyət göstərdiyi, həmçinin bir-birilə dost olmayan müxtəlif tayfaların qarşıdurması zəminində heç də çaşbaş qalmadı. Ağıllı siyasəti ilə BİRLİK İDEYASINA sadiq qaldı.

Müəllifin bir uğuru da ondadır ki, XVI əsr Azərbaycanı haqqında müəyyən tarixi, etnoqrafik, ictimai-siyasi mahiyyətli təsəvvür əldə edirsən. Biz müəlliflə bərabər Təhmasib şahın sarayını seyr edir, buradakı əyanların, vəzir-vüzəranın, ordu başçılarının hərəkətlərini izləyir, bəzilərinin həyat tərzi ilə də tanış oluruq. Biz müəlliflə bərabər Təbriz şəhərini gəzir, sadə peşə adamlarının, zəhmətkeş insanların əhatəsinə düşürük. Xüsusilə, Sultan Süleymanın hər yürüşü zamanı xalqın mətanəti, şaha sədaqəti bizi heyrətə gətirir. Digər tərəfdən, Yunus Oğuz əsrlər boyu qüdrətli bir dövlət kimi formalaşan Şirvan şahlığının süqutunu da, Səfəvilərlə münasibətini də nəzərdən qaçırmır. Yəni Azərbaycan xanlıqlarının o dövrki mövcudluğunu və iddialarını da unutmur.

"Təhmasib şah" həm də xarakterlər romanıdır, lap elə deyək ki, xarakterlər sərgisidir. Başda Təhmasib şah olmaqla, əsərdə dolğun obraz kimi diqqəti cəlb edən nə qədər yaddançıxmaz insanlarla qarşılaşırıq. Biz ilk fəsildəcə ölüm yatağında olan Şah İsmayılın vəsiyyətini dinləyirik: "Mən canımdan çox sevdiyim Azərbaycanımı tam birləşdirə bilmədim. Şirvanı və Şəkini nəzərdə tuturam. İndi bu şərəfli iş sənin öhdənə düşür. İnanıram ki, sən bunu edəcəksən. Bunu etmək üçün yeddi Oğuz tayfasını öz ətrafında cəmlə. Çalış ki, heç zaman səndən uzaqlaşmasınlar. Mən Rumlu, Qacar, Avşar, Zülqədər, Təkəli, Ustaclı, Şamlı tayfalarını deyirəm. Onlar sənin döyüşən qolların, səltənətin isə dirəkləridir". Bu sözlər-bu vəsiyyət, əslində romanın ideyasını, Təhmasib şahın yolunu, amalını işıqlandırır. Romanın ideyası elə bunun üstündə qurulmuşdur.

Lap ilk fəsillərdə-Təhmasibin hələ bir şah kimi özünü tam dərk etməməsi mərhələsində Div Sultanla Köpək Sultanı xatırlayaq. Onların hər birinin içində şahlıq iddiası yaşayır və hər biri də bu iddianın qurbanına çevrilir. Sonra Çuxa Sultan gəlir, o da iddiasının tələsinə düşür. Müəllif bunların, eləcə də, Təhmasibin qardaşları olan Sam Mirzənin və Əlqas Mirzənin ürəyinin içini görür, onların ŞAH OLMAQ xəyalları ilə real həyatdakı görünüşləri, hərəkət və rəftarı arasında ziddiyyəti qabardır. Əsərdə Təhmasibin digər düşmənləri də var və müəllif onları da nəzərdən qaçırmır. Təhmasibə qulluq göstərib sonra düşmən tərəfə keçən Üləma bəy Təkəli belə obrazlardan biridir. Məqsədi budur ki: "Qızılbaş və Osmanlı dövlətləri arasında, birinci mərhələdə mərkəzi Bidlis olmaqla Qars, Ərzurum, Diyarbəkir, Van, Qərbi Azərbaycan ərazisində yarımmüstəqil bir bəylik yaratsın. İkinci mərhələdə isə bu yarımmüstəqil dövləti müstəqil dövlətə çevirsin. Ancaq o, bu məqsədləri ürəyində saxlayır, Osmanlı sultanına həmişə öz sədaqətini izhar edirdi". Üləma bəy Təkəli Sultan Süleymana sığınır və onun yürüşlərində fəal iştirakçıya çevrilir, amma niyyəti puça çıxır.

Bu obrazlara tarixi baxımdan yanaşaq. Onları heç də miskin, şərəfsiz insanlar kimi qınaq hədəfinə çevirmək olmaz. Hər biri özünə görə ağıllı və qüdrətli insanlardır və təbii ki, hər birinin içində şahlıq iddiası baş qaldıra bilər. Lakin məsələ burasındadır ki, xəyalları və arzuları ilə real

gerçəklik arasında böyük bir uçurum var. Şahlığa layiq olmayan şahlıq iddiasına düşür və bu da onu məhvə sürükləyir.

Təhmasibin həyatı, şahlığı...bunların sonadək izlənilməsinə gəlincə, deyək ki, Sultan Süleymanla sülh müqaviləsi bağlanandan sonra romanda hadisələr də qapanır, bundan sonra hadisələrin təsvirini qısa bir xronika əvəz edir. Oxuyuruq: "Həyatda nəyə can atmışdısa, ona nail olmuşdu. Özünün şahlıq dövrünü özünə halal hesab edirdi. Atasının yanına üzüağ gedə bilərdi. Özündən sonra böyük Azərbaycan miras qoyacaqdı.Əsası qaraqoyunlulardan başlanan bütöv Azərbaycanı bir böyük ölkə halına gətirmək ideyasını yalnız Təhmasib şah tam həyata keçirə bilmişdi. O, Şirvanşahlar və Şəki vilayətini, həmçinin Tiflisi öz hakimiyyətinə aldı və əraziləri Azərbaycan torpaqlarına qatdı. Yalnız bir arzusunu həyata keçirə bilməmişdi: doyunca şeir yazmağı, incəsənətlə məşğul olmağı. Bunun zamanı çatanda artıq buna kifayət qədər təbi və hövsələsi qalmamışdı. Buna da çox üzülmürdü. Gördüyü işlər daha möhtəşəm idi".

Biz romanın sonunda belə bir möhtəşəm şahla vidalaşırıq. Mənəvi babalarımızdan biriydi o.

İndi isə Yunus Oğuzun "Əmir Teymur" romanından qısaca söz açaq. Roman iki kitabdan ibarətdir: I kitab "Zirvəyə doğru", II kitab "Dünüanın hakimi" adlanır.

Əlbəttə, tarixi şəxsiyyətin miqyas və böyüklüyünə görə, Əmir Teymur Nadir şahdan da, Təhmasib şahdan da qat-qat güclüdür, təkcə Şərq dünyasında deyil, bütün dünyada tanınan, sağlığında heyrətamiz bir şəxsiyyət kimi (burada fateh, basılmaz sərkərdə, həm də elmin, mədəniyyətin, şəhərlərin çiçəklənməsi üçün çalışan ədalətli, sivil bir hökmdar ifadələri yerinə düşür) dərk və etiraf olunan fövqəladə insan idi.

Təbii ki, Teymur haqqında çox yazıblar. Bu yazıların hər birində son dərəcə güclü bir şəxsiyyətin taleyindən söz açılır və istər obyektiv, istərsə də qərəzli və subyektiv reallıqları əks etdirsin, o əsərlərin hamısında ƏMİR TEYMUR nəhəngdir.Ancaq hər bir yazıda (söhbət bədii və publisistik əsərlərdən, tarixi xronikalardan gedir-V.Y.) Əmir Teymurun nəhəngliyi, fatehliyi özünəməxsus çalarlarla diqqəti cəlb etməlidir. Yunus Oğuzun romanında Əmir Teymura, onun şəxsiyyətinə, apardığı siyasətə böyük rəğbət hissi duyulur və müəllif sadəcə, onun keçdiyi savaş yolunu, apardığı müharibələri, daxili və xarici siyasətini izləməklə kifayətlənmir, həm də öz qəhrəmanını bütün bu məsələlərdə haqlı sayır. Buna səbəb odur ki, dünyanı lərzəyə salan Teymur ölkələri, şəhərləri qəsb etdiyi qədər də quran, tikən, yaradan bir şah olub. Şərq ölkələrində indi misilsiz tarixi abidələr kimi qorunan saraylar, mədrəsələr, türbələr, məscidlər məhz Teymur zamanında inşa olunubdur.

Romanda Teymurun xarakteri, bir insan və hökmdar kimi özünəməxsus keyfiyyətləri Tacir Ağbabanın dili ilə belə səciyyələndirilir: "Əmir Teymur ona tabe olmayanlara qarşı çox qəddardır. Tabe olmadınsa, axırına çıxmayana qədər rahatlıq tapmayacaq. Bu zaman onun üzünü görməsən yaxşıdır. Hər yan dağılar, hər yan yandırılar.

Mərhəmətlidir, ona görə ki, əfv edə bilir. Ən qatı düşmən də onun qarşısında diz çökdükdə, günahını boynuna aldıqda, səhvini etiraf etdikdə, onu bağışlayır, var-dövləti əlindən tamam almır.

Xəsisdir, ona görə ki, bir quruşunun da qədrini bilir, hamısının hesabatını aparır. Boşuna para xərcləməz. Özü istəməsə, heç kimə heç nə verməz. Bütün tutduğu yerlərin haqq-hesab dəftərini özü yoxlayır.

Səxavətlidir, ona görə ki, yığdığını müəyyən işlərə, məscidlərin tikilməsinə, bəxşişlərin verilməsinə xərcləyir.

Güclüdür, ona görə ki, məğlubedilməz ordusu var. Onun ordusu onun yumruğu kimi bir şeydir. İstəyəndə hamısını birdən yumur, hamısını birdən açır. Orduda elə qaydalar qoyub ki, hətta təzə gələn döyüşçü də onun əmrini sözsüz yerinə yetirir-ölümə getmək olsa belə. Gücü həm də onun başındadır. Çıxılmaz vəziyyətlərdə onun başı o qədər dəqiqliklə işləyir ki, təəccüb etməyə bilmirsən.

Zəifdir, ona görə ki, o, təkdir. Məvrannəhrdə onu əvəzləyəcək insan, başqa bir əmir yoxdur. Yaxınlarına, ətrafına böyük sevgisi var. Onların başına bir iş gələndə üzülür, bir neçə gün özünə gələ bilmir.

Nifrəti böyükdür, ona görə ki, sevdiyi iş, onun qoyduğu qaydalar pozulanda bağışlamır, hətta ən yaxını olsa belə. Onun sevgisi ilə nifrəti arasında ipək pərdə qədər məsafə mövcuddur".

Qəddar. Mərhəmətli. Xəsis. Səxavətli. Güclü. Zəif. Nifrəti böyük. Bütün bu xasiyyətlər yalnız bir adamın subyektiv fikridir, biz bunun tarixi reallıq baxımından nə qədər doğru olub-olmadığının fərqinə varmırıq. Amma inanırıq ki, Əmir Teymur kimi son dərəcə ziddiyyətli bir insanda bütün bu müsbət və mənfi xüsusiyyətlər əks olunub. Yunus Oğuz da romanda mümkün qədər Teymuru belə bir mürəkkəb kompleksə malik bir şəxsiyyət kimi təqdim etməyə çalışır.

Tarixi roman müəllifi mütləq öz əsərlərində tarixi kolorit yaratmalıdır. Bunu M.S.Ordubadi bacardı, bunu Yusif Vəzir bacardı, Əzizə Cəfərzadə, Fərman Kərimzadə də bacardı, Yunus Oğuz da cəhd edir. Tarixi kolorit deyəndə təbii ki, təsvir edilən dövrün adət-ənənələri, sarayda və xalq arasında yaşanan özünəməxsus dil, məişət, davranış xüsusiyyətləri başa düşülür. Bu cəhəti Nizami Cəfərov da doğru sezib: "Bu dövr ("Nadir şah"dan söhbət gedir-V.Y.) bir milli düşüncənin çiçəklənməsi dövrüdür. Xalqın həyatının, məişətinin, xalq yaradıcılığının ön plana çıxması dövrüdür. Bunu da Yunus Oğuz romanda xeyli dərəcədə ifadə edə bilir. Bu ifadə onda özünü göstərir ki, o dövrün böyük sənətkarlarının adı çəkilir, müəyyən etnoqrafik detallar verilir. Məsələn, Nadir şahın oğlunun toyunda xalqın içərisindən gəlmiş qavaldaş ifaçısından başlamış Xəstə Qasıma qədər onların epizodik şəkildə olsa da, kifayət qədər maraqlı obrazları yaranır. Eyni zamanda, romanın özünün strukturunda bir dastançılıq, bir epos ruhu var".

Yunus Oğuz son dörd ildə daha məhsuldar işləmişdir. O, "Şah arvadı və cadugər", "Sultan Alp Arslan" və "Atabəy Eldəniz" tarixi romanlarını qələmə almışdır. Bu romanlar türkçülük və azərbaycançılıq ideyalarını möhkəm və davamlı şəkildə əks etdirir. Yenə də bu həqiqəti söyləməyi lazım bilirik: Yunus Oğuz tarixi, tarixi hadisələri, tarixi şəxsiyyətləriideallaşdırmaq fikrindən uzaqdır. O, sadəcə olaraq tarixin üzərindən sirli, müəmmalı örtüyü çıxarıb atır. Bizi həqiqət işığına çəkib aparır. Tarixi romanda müəllifin nə dərəcədə yazıçı və nə dərəcədə tarixçi olmağı mühüm əhəmiyyət kəsb edir. Bunlar vəhdət təşkil edirsə, əsl tarixi roman meydana çıxır. "Şah arvadı və cadugər" romanında Yunus Oğuzun istifadə etdiyi bədii təsvir vasitələri, təhkiyyə üsulunun cazibədarlığı və Ordubadi üslubuna xas olan müəyyən xüsusiyyətlərin nəzərə çarpması romanın tarixilik prinsipinə qətiyyən xələl gətirmir. Nizami Cəfərov bu romana həsr etdiyi məqaləsində haqlı olaraq qeyd edir ki: "Bu əsər Yunus Oğuzun əvvəlki əsərlərindən daha mükəmməldir, rahat oxunur, hadisələr oxucunu çəkir. Elə bil xüsusi bir dünyaya düşürsən. Yunus Oğuz bu hadisələr, bu münaqişələr, bu münasibətlər dünyasının tam hakimi və müəllifidir. Yəni mən bunu heç bir tarixi romanda görməmişəm... Müəyyən epizodlar, detallar, təsvirlər var. Olduqca istedadla

yazılıb, istedadla yaradılıb". Qeyd edək ki "Şah arvadı və cadugər" romanı Azərbaycan tarixində yer tutmuş Səfəvilər hakimiyyəti dövründən bəhs edir.

Yunus Oğuzun "Sultan Alp Arslan" əsəri də müasir tarixi romanlarımızın maraqlı bir nümunəsi kimi diqqəti cəlb edir. Bu roman Yunus Oğuzun təkcə mükəmməl bir yazıçı olmağını deyil, həm də mükəmməl bir türkçü kimi diqqəti cəlb etdiyini də nəzərə çarpdırır. Romanın hər bir səhifəsində Yunus Oğuzun türkçülük dünyasının zəfərləri ilə qürur duyduğunun, təsvir etdiyi qəhrəmanların möhtəşəm xarakterləri ilə fərəhləndiyinin şahidi olursan. Ancaq bütün bunlar müəllifi ifrat aludəçilik həddinə aparıb çıxarmır.

Yunus Oğuzun "Atabəy Eldəniz" əsəri onun əgər belə demək mümkünsə, mürəkkəbi qurumamış romanıdır və bu roman haqqında iki həmkarım - Nizami Cəfərov və İsa Həbibbəyli mətbuatda geniş məqalələrlə çıxış etdiyindən üzərində çox dayanmayacağam. Bunu söyləyə bilərəm ki, Yunus Oğuz bizim böyük tarixçimiz akademik Ziya Bünyadovun tarix elmində gördüyü o möhtəşəm işi bədii ədəbiyyatda reallaşdırmağa çalışmışdır...

Yunus Oğuz Azərbaycan tarixi romanının XXI əsrdə yeni və maraqlı səhifələrini yaradan bir müəllifdir, onun mövzuları tarixin ən qədim köklərinə, qatlarına gedib çıxır - amma müasir bədii təfəkkürün işığı ilə.

Bu yolda Yunus Oğuza yeni uğurlar arzulayıram.

**Vaqif Yusifli,**
**filologiya elmləri doktoru**

***Olaylar .- 2025.- 11-17 iyul (№23).- S.12-13.***